# Təbrik edirik!



"Əlillər Dünyası" qəzetinin yaradıcı kollektivi və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin İdarə Heyətinin üzvləri Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanovanı Polşa Respublikasının Prezidenti Lex Kaçinski tərəfindən insan hüquqlarının müdafiəsi sahəsindəki nailiyyətləri, eləcə də Polşa və Azərbaycan arasında dostluq münasibətlərinin və əlaqələrinin yaranmasındakı xidmətlərinə görə Böyük Qızıl Xaç Ordeninin "Zabit" dərəcəsi ilə təltif edilməsi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayır.

# Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 60 illiyinə həsr olunmuş elmi-praktik konfrans

***İnsan Hüquqları üzrə Müvəkkilliyin Mətbuat xidmətindən aldığımız başqa bir məlumatda isə bildirilir ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova insan hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə polis orqanları ilə işgüzar əməkdaşlıq əlaqələri qurmuşdur.***

Məhz bu əməkdaşlıq çərçivəsində bir sıra tədbirlər həyata keçirilmişdir ki, bu da ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının lazımınca qorunmasına öz töhfəsini verir. Belə tədbirlərdən biri də bu yaxınlarda İnsan Hüquqları üzrə Müvəkkilliklə Daxili İşlər Nazirliyinin Polis Akademiyasının birgə keçirdiyi konfrans olmuşdur.

"Hüquq-mühafizə orqanlarının fəaliyyətində insan hüquqlarının təminatı" mövzusunda keçirilmiş konfransda BMT-nin, AŞ-nin və ATƏT-in Azərbaycan nümayəndəliklərinin təmsilçiləri də iştirak etmişlər. Konfransı Polis Akademiyasının rəisi, polis general-mayoru Ramiz Nağıyev açaraq iştirakçıları salamlamış, Müvəkkillə Polis Akademiyası arasında səmərəli əməkdaşlıq əlaqələrinin formalaşdığını və birgə tədris vəsaitlərinin hazırlandığını vurğulamışdır.



Ombudsman «Ümumdünya İnsan Hüquqları Bəyannaməsi insan hüquqları sahəsində təməl sənədi kimi» mövzusunda məruzə ilə çıxış etmişdir.

Konfransda birgə səmərəli əməkdaşlığın gələcəkdə də davam etdirilməsi ümidləri ifadə edilmişdir. Həmçinin konfransda Ombudsman təsisatı ilə Polis Akademiyasının birgə hazırladıqları tədris vəsaitlərinin, o cümlədən R.Kroşonun «Polis və insan hüquqları» kitabı tədbir iştirakçılarına paylanılmışdır.

Tədbirdə Ombudsman Aparatının hüquqi nəşrlərinin sərgisi də nümayiş etdirilmişdir.

***Cahid Sabiroğlu***

# ƏHMƏD BƏY AĞAYEV İSLAM DİNİ HAQQINDA

## ( Fəlsəfi düşüncələr )



**MİR MÜSTƏQİL AĞAYEV, AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri doktoru**

**(Əvvəli ötən saylarımızda )**

Əhməd bəy Ağayev də bunu həyatda gördüyü üçündür ki, böyük təəssüf hissi keçirir. Müsəlmanların geriliyini onların qəflət yuxusunda olub, islama əməl etməmələrində, hələ də dinsizlikdən əl çəkməmələrində görür. Ancaq Əhməd bəy inanır ki, bu yuxu çox çəkməyəcək, gec-tez müsəlmanlar oyanacaq və ya onları oyadacaqlar.Ona görə ki, bu qəflət yuxusu qeyri-təbii və tarixin nadir olmayan əcibə halətlərindən biridir...Bir halda ki, İslam xristianlıqdan çox-çox mütərəqqi bir dindir, bəşəriyyətin mənafeyinə daha uyğun, cəmiyyətin sağlam inkişaf istiqamətində irəliləməsinə çalışır, elm-fünun tərəfdarıdır, bəs nə üçün müsəlman aləmi, müsəlman milləti geridədir? Niyə "girdabi-bəlayə qərq olduğu halda özünün vasiteyi-nicatını" tapa bilmir?

Müəllif bu suala belə cavab verir: " Bizim üçün haman vasiteyi-nicat fəqət Qurani-əzimüşşandır. Ondan səva bizim tutacaq və qurtaracaq şeyimiz yoxdur. Necə kim, Avropanı girdabi-cəhalət və zülmətdən xikas edən Can Huslar, Lyuterlər, Qalonilər və Qromeylər vasitəsilə Tövrat və İncil oldular, biz müsəlmanları da girdabi-cəhalət və zülmətdın sahili-nicat və fəlahətə hidayət edən Quranımız olacaq."

Əhməd bəy Ağayevin bu cavabı həyata açıq gözlə baxmağı bacaran, cəmiyyətin inkişafında mühüm rol oynayan hər hansı bir hadisə haqqında sadəcə məlumatı olan, reallığı dərk edən hər bir adamın, hər bir ziyalının heyrət və təəccübünə səbəb olar. Biz elə düşünürük ki, bu cavab gənc Əhməd bəyin dünyagörüşündəki ziddiyyəti üzə cıxarır. Axı necə ola bilər? Əhməd bəy Ağayev müasirlərinin çoxuna nisbətən savadlı, həm də Avropa təhsili görmüş, Qərb mədəniyyəti ilə tanış olmuş bir ziyalıdır, təbiət və cəmiyyət haqqında mövcud olan bir çox təlim, cərəyan və fikirlərlə tanış idi. Real, konkret hadisələrlə mücərrəd anlayışların fərqini, mahiyyətini yaxşı başa düşürdü. Bəs necə oldu ki, Əhməd bəy böyük bir xalqın, millətin geridə qalmasının, tənəzzül etməsinin səbəbini Qurana olan inamın zəifliyində görür, vasiteyi-nicatı Qurani-əzimüşşandan möhkəm-möhkəm yapışmaqda axtarır? Doğrudanmı bu inam, bu ideya onda əqidə şəklində formalaşmışdı, onun ictimai baxış dairəsinin baş xəttini, leytmotivini təşkil edirdi? Bəlkə, bu, bir manevr idi..?

Hər bir yaradıcı şəxsiyyətin, siyasi və ictimai xadimin əməlində, əqidəsində olan nöqsana, çatışmayan cəhətə qiymət verərkən bir amil əsas götürülməlidir: bu gün bizim nöqsan, ziddiyyət kimi qəbul etdiyiumiz həmin şey vaxtilə onun müəllifi tərəfindən həqiqətənmi o şəkildə başa düşülmüş, qəbul edilmişdir və ya zamanla, həyatla ayaqlaşmaq xatirinə, diqqəti xüsusi cəlb etmək xatirinə bir vasitə kimi istifadə olunmuşdur?! Əhməd bəyin yuxarıdakı cavabına da bu mövqedən yanaşmaq, zənnimizcə, pis olmaz.

Əhməd bəyin bu cavabı heç də gənc, həyatı dərk etməkdə çətinlik çəkən bir ziyalının cavabı deyil. O vaxt Əhməd bəyin 38 yaşı var idi.Təbiət, cəmiyyət, həyat haqqında filosofların, tarixçılərin, müxtəlif sənət adamlarının, dövlət və siyasi xadimlərin fikirləri, mülahizə və fərziyyələrini eşitmış və oxumuşdu. Real həyatı da, mənəviyyatı da yaxşı fərqləndirirdi. Konkretlik və mücərrədliyin də nədən ibarət olduğunu bilirdi. İnam və əqidənin də insanın əməli fəaliyyəti ilə üzvi əlaqəsi olmadan heç bir nəticə verə bilməyəcəyini də başa düşürdü. Əhməd bəy bilirdi ki, Allaha, Qurana inam, itaət və pərəstiş insanın əməlində öz əksini tapmalıdır.Əməlsiz, hərəkətsiz, fəaliyyətsiz inam, əqidə hava qovuqcuğu kimi bir şeydir, içərisi boşdur. Allaha, Qurana inanmaq, inamında sədaqətli olmaq heç də adi sözlərlə, hər hansı ayini icra etməklə təsdiqlənmir. İnam, əqidə əməldə, feldə özünü təsdiqləyir. Əməl, fəaliyyət cəmiyyətlə bağlıdır, cəmiyyətin inkişafının əsasını, təməlini təşkil edir. İnsanların münasibətini müəyyənləşdirir və tənzimləyir. Əqidə və inamdan danışarkən, məsələnin bu cəhətlərinə xüsusi diqqət yetirmək lazım gəlir.

***(Davamı gələn saylarımızda)***

# Əlillərin hüquqları ilə bağlı beynəlxalq seminar

## *Seminarda Ombudsman Aparatının əməkdaşları da iştirak edib*

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilliyinin Mətbuat xidmətindən aldığımız məlumatda bildirilir ki, bu yaxınlarda Macarıstanın paytaxtı Budapeşt şəhərində "Əlilliyi olan insanların hüquqlarının inkişaf və müdafiə etdirilməsi sahəsində milli insan hüquqları strukturlarının rolu" mövzusunda beynəlxalq seminar keçirilib. Seminarda İnsan Hüquqları üzrə Müvəkkilliyin əməkdaşları Müqalib Mahmudov və Lalə Əzimova da iştirak ediblər.***

Seminara Macarıstanın dövlət təşkiltları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələri, Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin insan hüquqları üzrə milli təsisatlarının təmsilçiləri qatılmışlar.



Azərbaycan Ombudsmanının əlillərin hüquqları üzrə ixtisaslaşmış müşaviri M.Mahmudov və L.Əzimova məruzə ilə çıxış edərək, ölkəmizdə əlilliyi olan insanların hüquqlarının təmin olunması sahəsində görülmüş işlər, Müvəkkil Elmira Süleymanovanın bu istiqamətdə səmərəli fəaliyyəti barədə məlumat vermişlər.

Tədbirdə BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyası və insan hüquqlarının müdafiəsi sahəsində bir sıra digər beynəlxalq hüquqi-normativ aktların müqayisəli təhlili ilə bağlı məlumatlar verilib və Azərbaycan Ombudsmanının nümayəndələri Avropa İnsan Hüquqları Bürosu Milli İnsan Hüquqları Strukturları (MİHS) şöbəsinin rəhbəri M.Eger, həmin qurumun layihə rəhbəri D.Freyman, Beynəlxalq Demokratik İslahatlar Mərkəzinin vitse-prezidenti T.Magiyariş və digərləri ilə görüşmüş, fikir və məlumat mübadiləsi aparmışlar.

***Dünyamin Mürsəl***

# Vətənpərvərlərə sonda verilən qiymət budurmu?..

***Redaksiyamıza Göyçay rayonunun Hüngütlü kənd sakini, 1961-ci il təvəllüdlü, 3 uşaq atası Əliyar Babakişi oğlu Tahirov tərəfindən şikayət ərizəsi daxil olub. Əliyar Tahirov öz şikayət ərizəsində ilk öncə 1980-1982-ci illərdə Əfqanıstanda həqiqi hərbi xidmətdə olduğunu bildirir. Sonra isə o, 1994-cü ilin fevral ayının 2-si könüllü şəkildə Qarabağ uğrunda döyüşlərə yollanmış və Kəlbəcər rayonunun Yamşaq kəndində gedən ağır döyüşlərdə iştirak etmişdir.***

Elə həmin döyüşlərdə ağır yaralanmış və yaralı vəziyyətdə Gəncə şəhərində yerləşən 230 saylı hərbi hospitala gətirilmişdir. 3 ay burada müalicə edildikdən sonra evə buraxılmış və 45 gün də ev şəraitində müalicə edilmişdir. Könüllü döyüşçü bu barədə lazımi tibbi sənədlərə də malikdir. Bundan sonra Ə.Tahirov 169 saylı hərbi hissəyə qayıtmaq istəsə də, həmin hərbi hissəni tapa bilməmişdir. Bununla əlaqədar Göyçay Rayon Hərbi Komissarlığına dəfələrlə müraciət etdikdən sonra ona həmin hərbi hissənin buraxıldığını bildirmişlər. Bundan sonra o, dəfələrlə aidiyyətli təşkilatlara müraciət etmiş, lakin heç nəyə nail ola bilməmişdir. Hərbi komissarlıqda isə onun sənədinə fərari olduğu yazılmışdır.

Ə. Tahirovun sözlərinə görə, bu gün də bədənində olan qəlpələr ona böyük əziyyət verir. İki müharibənin iştirakçısı olmasına baxmayaraq, bu günə kimi ona heç bir dövlət təşkilatı tərəfindən heç bir yardım və köməklik göstəirlməyib. Üstəlik də, ona fərari damğası vurulur... Onun özünün dediyi kimi, məgər 3 övladını qoyaraq Vətən uğrunda döyüşə könüllü yollanmış sadə, vətənpərvər insana belə fərari damğasını vurmaq nə dərəcədə düzgündür?! Axı bunu Allah da qəbul etməz... Digər tərəfdən, belə vətənpərvər insanlara haqsızlıq etmək, onlara layiq olduqları qiyməti verməmək, əslində gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasına öldürücü zərbə vurmaq deməkdir.

Biz də tezliklə müvafiq dövlət təşkilatlarının Azərbaycanın ərazi bütövlüyü və dövlət müstəqilliyi uğrunda döyüşərək sağlamlığını itirmiş Ə.Tahirovla bağlı yaranmış ziddiyyətli vəziyyətə aydınlıq gətiriləcəyinə inanırıq.

***"Əlillər Dünyası"***

# Şəhid ailəsinin fəryadı

## *Görəsən, bu fəryadı eşidəcək bir təşkilat tapılacaqmı?*

***Bəzi insanlar yaşamaq üçün, bəziləri isə yaşatmaq üçün yaşayırlar. Yaşatmaq üçün yaşayanlar öz canlarını qurban verdilər ki, bizlər bu həyatda yaşayaq. Vüqar Əliəşrəf oğlu Sultanov da belələrindən idi... 1970-ci ilin payız günlərinin birində Sultanovlar ailəsi dünyaya gəlmiş oğul sevincini yaşayarkən ağıllarına belə gəlməzdi ki, vaxt gələcək Vüqar Vətənin qeyrətini çəkən, şərəfini qoruyan oğullar sırasında yer tutacaq.***

1988-ci ildə Altay diyarına hərbi xidmətə yollanan Vüqar Biyski şəhərində 2 il desant hərbi alayında xidmət edib, snayperçi olub. 1990-cı ildə Sovet Ordusundan tərxis olunub. 1990-cı ilin qanlı Yanvar hadisələri zamanı həbs edilsə də, heç bir təzyiq, sıxıntı onun milli ruhunu sarsıda bilməyib. Vüqar 1992-ci ildə Nizami Rayon Hərbi Komissarlığına rəsmi müraciət etmiş və könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollanmışdır. Vüqar Ağdamın Şelli və digər kəndlərində vuruşub. O, 1992-ci ilin iyununda Ağcabədidə olub. İyunun 26-da onları həyəcan təbili ilə Füzuliyə aparıblar. İyunun 28-də isə Qırmızı Bazar ətrafında gedən ağır döyüşdə Vüqar son nəfəsədək vuruşaraq, qəhrəmancasına həlak olub.

Qeyd edim ki, Vüqarın bibisi Ədilə xanım da könüllü olaraq Azərbaycan torpaqları uğrunda vuruşub və Qarabağ müharibəsi veteranıdır. Fəqət, bu gün Vətən uğrunda fədakarlıq göstərərək, canından keçən şəhidin ailəsinin acınacaqlı və dözülməz mənzil şəraitini yaxşılaşdırmaq üçün fədakarlıq göstərə biləcək bir kimsə, bir təşkilat tapılmır... Azərbaycanın ilk şəhidlərindən olan Vüqarın anası və bacısı II dərəcəli əlil olmalarına baxmayaraq, ailə hələ də Nizami rayonu Ş.Mirzəyev küçəsi, 76a saylı binanın zirzəmisində yaşayır...

Sultanovlar ailəsi dəfələrlə müvafiq təşkilatlara çoxsaylı müraciətlər ediblər, lakin onların mənzil problemi hələ də öz müsbət həllini tapmayib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məsul şəxsləri isə onların mənzil probleminin mart ayinda həll ediləcəyinə söz veriblər. Sultanovlar ailəsi də səbirsizliklə həmin vaxtı gözləyirlər.



Biz də ümid edirik ki, tezliklə bu şəhid ailəsinin gözləntilərinə son qoyulacaq. Çünki buna ən azı Sultanovlar ailəsinin böyük mənəvi haqqı var.

***Sevda Səlimova***

# Təbrik edirik!



Bu yaxınlarda Azərbaycan Respublikası Əlillər Cəmiyyətinin rəhbərliyində dəyişiklik baş verib. Xədicə Hacı qızı Mikayılova cəmiyyətin yeni sədri seçilib. Biz də bu yeni seçim münasibətilə Xədicə xanımı ürəkdən təbrik edir, ona işlərində yeni uğurlar arzulayırıq. İnanırıq ki, Xədicə xanımın bu cəmiyyətə sədr seçilməsi qurumun fəaliyyətində sözün həqiqi mənasında müsbət dönüş yaradacaq. Ümidvarıq ki, o, ətrafına mütərəqqi düşüncəli yeni sağlam qüvvələri toplayaraq, əlillərin həyata inteqrasiyası və onların həyatımızın bütün sahələrində hüquqlarının qorunması üçün səmərəli fəaliyyət göstərəcəkdir.

***BƏC-in İdarə Heyəti***

# "Səhiyyədə İctimai Nəzarət"

## *Layihə Beynəlmiləlçi Əlil Döyüşçülər Fondu tərəfindən həyata keçirildi*

***Bu yaxınlarda Beynəlmiləlçi Əlil Döyüşçülər Fondu "Səhiyyədə İctimai Nəzarət" adlı layihənin yekunları ilə bağlı tədbir keçirdi. Fondun sədri Sərraf Orucov çıxış edərək bildirdi ki, statistik məlumatlara görə, hazırda Azərbaycanda 440. 000 əlil var ki, bu da ümumi əhalinin 5 faizini təşkil edir. Həmçinin tədbirdə ölkəmizdə 11.04.1997-ci il tarixdə qəbul edilmiş "Əlilliyin qarşısının alınması, əlilliyin reabilitasiya və sosial müdafiəsi haqqında"Qanuna əsasən əlillərin tibbi reabilitasiya və sosial müdafiəsinin aidiyyətli dövlət idarələri tərəfindən icra olunması diqqətə çatdırıldı. Lakin əlillərin əksər hissəsi onlara dövlət tərəfindən verilmiş imtiyazlar və müavinətlər haqqında qanunlardan məlumatsız olduqlarına görə, öz hüquqlarını müdafiə edə bilmirlər. Nəticədə əlilliyi olan insanların xəstəliklərinin qarşısı alınmadıgından onlarda yeni-yeni xəstəliklər yaranır.***

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə Beynəlmiləlçl Əlil Döyüşçülər Fondu tərəfindən həyata keçirilən "Səhiyyədə İctimai Nəzarət" Layihəsi çərçivəsində Fondun əməkdaşları ilkin olaraq Bakının 5 rayonunda və Sumqayıt şəhərində xüsusi qayğıya ehtiyacı olan insanların əməkdaşlıq etdiyi əlilyönümlü qeyri-hökumət təşkilatları tərəfindən müəyyən olunmuş 500 nəfərin ünvanlarına gedərək, əlillərin hər biri ilə fərdi qaydada görüşmüş və sosioloji sorğular keçirərək, onların problemləri ilə yaxından maraqlanmışlar.



***Bəxtiyar Rzayev***